INTERNATIONAL MONETARY FUND

COMMUNICATIONS DEPARTMENT

Mətbuat üçün yayım №17/498
DƏRHAL YAYILMALIDIR
15 dekabr2017-ci il

BeynəlxalqVayutaFondu
Vaşinqton, KD, 20431 ABŞ

**BVF-nin işçi heyəti 2017-ci il üzrə IV Maddə Məsləhətləşmələri çərşivəsində Azərbaycan Respublikasına səfərini yekunlaşdırır**

Missiyanın yekunları ilə bağlı yayımlara BVF işçi heyətinin ölkəyə səfər etdikdən sonra ilkin tapıntılarını əks etdirən açıqlamalar daxil edilir. Bu açıqlamada ifadə edilmiş fikirlər BVF işçi heyətinə məxsusdur və BVF İcraiyyə Şurasının mövqeyinə dəlalət etmir. Hazırki missiyanın ilkin tapıntılarına əsasən işçi heyət BVF-nin rəhbərliyi tərəfindən qəbul edilməli hesabatı hazırlayacaq, müzakirələr və müvafiq qərarın çıxarılması ilə əlaqədar onu BVF-nin İcraiyyə Şurasına təqdim edəcəkdir.

• Yaxın gələcək üzrə iqtisadi artım perspektivi müsbətdir. 2018-ci ildə dövlət investisiya xərclərinin və sosial xərclərin artdığı şəraitdə qeyri-neft sektorunun 4% yüksəlməsi gözlənilir.
• Sosial təminat və əmək bazarı sahələrində nəzərəçarpan nailiyyətlər əldə edilmişdir. Bunlara yeni işsizliyin sığortası fondunun yaradılması, pensiya islahatının həyata keçirilməsi və passiv əmək bazarı proqramlarından aktiv proqramlara keçid daxildir.

Məhəmməd əl-Korşinin başçılıq etdiyi Beynəlxalq Valyuta Fondunun (BVF) heyəti 2018-ci il üzrə IV Maddə Məsləhətləşmələri çərçivəsində müzakirələr aparmaq üçün 30 noyabr – 14 dekabr tarixlərində Bakıya səfər etmişdir.

Səfərin sonunda cənab əl-Korşi aşağıdakı açıqlamanı vermişdir:

“Fəal makroiqtisadi siyasət və daha üstün neft qiymətləri sayəsində iqtisadiyyat 2017-ci ildə stabilləşdi. Qeyri-neft iqtisadiyyatı əsasən xidmət və kənd təsərrüfatı sektorlarının canlanması nəticəsində artmağa başladı. Daha yüksək neft qiymətləri, qeyri-neft ixracının yaxşılaşması və idxalın daralması həmçinin cari hesabın profisitini bərpa etdi. Lakin əsasən valyuta məzənnəsinin daxili qiymətlərə ötürücülüyü və və təzimlənən qiymətlərdə birdəfəlik artımlar nəticəsində illik istehlak inflyasiyası yüksək səviyyədə qərarlaşıb. Hazırda missiya 2017-ci il üzrə real ÜDM-nin 0.3% azalmasını and orta illik inflyasiyanın 13% təşkil edəcəyini planlaşdırır”.

“Yaxın gələcək üzrə iqtisadi artım perspektivi müsbətdir. 2018-ci ildə dövlət investisiya xərclərinin və sosial xərclərin artdığı şəraitdə qeyri-neft sektorunun 4% yüksəlməsi gözlənilir. Digər tərəfdən, neft sektorunda azalma davam edəcək. Ümumiyyətlə, 2018-ci il üzrə iqtisadi artım 2% səviyyəsində proqnozlaşdırılır, ortamüddətli dövr ərzində isə, qaz

yataqlarının işlənməsinə başlandıqdan sonra 3.5-4% arasında olması planlaşdırılır. Baza ilinin təsirləri tükəndikcə inflyasiya dərəcəsi 2018-ci ildə 7%-dək, sonra isə tədricən daha aşağı düşəcək. Bank sektorunda restukturizasiya tədbirlərinin tamamlanmamasına baxmayaraq ümumi perspektivlə bağlı risklər əsasən neytraldır".

"Neft qiyməti ilə bağlı sarsıntılar geçəkləşdikdən sonra hökumət makroiqtisadi siyasəti müvafiq qaydada sərtləşdirdi, məzənnə çevikliyi üçün şərait yaratdı və bank sistemindəki zəif bəndlərin aradan qaldırılmasına başladı. İqtisadi tənəzzülün tədricən səngidiyi və neft qiymətlərinin artdığı bir vaxtda qeyri-elastik valyuta məzənnəsinə və qeyri-dayanıqlı səviyyədə yüksək dövlət investisiyalarına qayıdışla əlaqədar təzyiqlər mövcud ola bilər. Buna müqavimət göstərmək lazımdır. Neft qiymətlərinin 2016-cı ilin əvvəlinə təsadüf edən ən aşağı səviyyədən yüksəlməsinə baxmayaraq 2011-2014-cü illərdə müşahidə edilmiş olduqca yüksək səviyyəyə yenidən çatması gözlənilmir".

"Fiskal xərcləmənin, xüsusilə əsaslı kapital xərclərinin 2018-ci ildə nəzərəçarpan dərəcədə artması nəzərdə tutulub. Lakin yüksək neft qiymətləri Azərbaycanın fiskal balansına ediləcək mənfi təsirin yayılmasının qarşısını alacaq. Bununla belə, dövlət investisiyasının keyfiyyəti, həmçinin iqtisadiyyatın əsaslı kapital xərclərində ciddi artımı "həzmetmə" qabiliyyəti ilə bağlı narahatlıq mövcuddur. Hökumət, orta müddət ərzində siyasətin formalaşdırılmasını istiqamətləndirmək naminə 2019-cu ildəfiskal qaydalar toplusunu tətbiq etməklə bu narahatlığı aradan qaldırmağı düşünür. Bu qaydalar irəliyə aparan düzgün addım ola bilər və yaxşı tərtib edildikdə iqtisadi siyasətin gözlənilə bilən qaydada baş tuması və etimadlılığını yaxşılaşdıra bilər.

"Azərbaycanın qarşısında duran birinci dərəcəli təxirəsalınmaz məsələ bank sektorundakı zəifliklərin aradan qaldırılması və kreditlərin verilməsi üzrə vasitəçilik prosesinin yenidən başlanmasıdır. Bu məqsədlə səlahiyyətli orqanlar Azərbaycanın maliyyə sistemini yükləyən pis aktivləri tam həcmdə etiraf etməlidirlər. Bu mənada, həmin aktivlərlə bağlı müvafiq həllərinin çevik həyata keçirilməsi iqtisadi artıma töhfə verəcəkdir. Səlahiyyətli orqanlar maliyyə sabitliyinə rəvac vermək məqsədilə banklara nəzarət və onların sağlamlaşdırılması prosesini gücləndirməyə cəhd göstəriblər. Eyni zamanda, onlar bank sisteminin tənzimlənməsi sahəsindəki durğunluğun qısa müddətdə aradan qaldırılması və bankların maliyyə göstəricilərinin hesabatlarda bildirilməsi prosesinin etibarlılığının gücləndirilməsi ilə razılaşırlar".

"Missiya, Azərbaycan Mərkəzi Bankı və maliyyə tənzimləyicisi (Maliyyə Bazarlarına Nəzarət Palatası) kimi təsisatların müstəqilliyini qorumağın vacibliyini vurğulayır".

"Missiya hökumətin struktur islahatları gündəliyinin icrasında əldə etdiyi nailiyyətləri təqdir edir. Sosial təminat və əmək bazarı sahələrində nəzərəçarpan nailiyyətlər əldə edilmişdir. Bunlara yeni işsizliyin sığortası fondunun yaradılması, pensiya islahatının həyata keçirilməsi və passiv əmək bazarı proqramlarından aktiv proqramlara keçid daxildir. Bununla yanaşı, struktur islahatlarının davam etdirilməsi və həyata keçirilməsi çox zəruridir. Görülən tədbirlər tam və qətiyyətlə icra edilməzsə onların təsiri də çox pərakəndə olacaqdır".

“BVF-nin işçi heyəti səlahiyyətli orqanlara açıq mövqe, səmimi müzakirələr, həmçinin göstərilmiş qonaqpərvərliyə görə minnətarlığı bildirir”.